2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlham Məmmədovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 23 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 31 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü İlham Məmmədov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş 67 saylı Cəlilabad şəhər seçki dairəsindən Cəngan bələdiyyəsi üzrə qeydə alınmış namizəd Ağayev Qadir Hacıağa oğlunun həmin seçki dairəsinin 26 saylı seçki məntəqəsində seçkinin düzgün aparılmadığını, vətəndaşların hüquqlarının pozulmasına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 23 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən araşdirmaya qəbul edilmişdir.

Müraciətin araşdırılması nəticəsində aşağıdakıları müəyyən etdim:

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Cəlilabad rayonu Cəngan bələdiyyəsinə namizəd Ağayev Qadir Hacıağa oğlu 67 saylı Cəlilabad şəhər seçki dairəsinin 26 saylı seçki məntəqəsinin səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının protokolunu təqdim etmişdir, müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

2019-cu il dekabrın 30-da qeydə alınmış namizəd Q.H.Ağayev Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək həmin şikayətdən imtina etdiyini bildirmişdir.

Buna görə ərizəçi şikayətdən imtina etdiyinə görə muraciətin araşdırılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Cəlilabad rayonu Cəngan bələdiyyəsinə namizəd Ağayev Qadir Hacıağa oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 23 saylı müraciətinin araşdırılmasına xitam verilsin

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlham Məmmədov.